*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   26 avqust 2020-ci il   № 52 (2470)   Qiyməti 30 qəpik


# “Qardaş Türkiyənin uğurlarına öz uğurlarımız qədər sevinirik”

## Prezident İlham Əliyev Türkiyə tarixinin ən böyük təbii qaz yatağının kəşf olunması münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğanı təbrik edib

*Prezident İlham Əliyev Türkiyə tarixinin ən böyük təbii qaz yatağının kəşf olunması münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib.*



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı məktubda Türkiyənin enerji təhlükəsizliyi sahəsində növbəti önəmli addımını atdığını bildirib. Prezident qeyd edib ki, qaz yatağının işlənməsi qardaş Türkiyə xalqına faydalar gətirəcəkdir. Bu yatağın kəşfi həm də Türkiyənin sənaye potensialının və artan gücünün təzahürüdür.

Məktubda vurğulanıb ki, Azərbaycan və Türkiyə uzun illər ərzində nəhəng enerji və nəqliyyat layihələrini uğurla icra edirlər. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, Bakı-Tbilisi-Qars layihələri ölkələrimiz və xalqlarımız üçün yeni imkanlar açır və Azərbaycan-Türkiyə tərəfdaşlığını daha da möhkəmləndirir.

Dövlətimizin başçısı ümid etdiyini bildirib ki, Türkiyənin hazırda apardığı digər kəşfiyyat layihələri də müvəffəqiyyətlə nəticələnəcəkdir. "Qardaş Türkiyənin uğurlarına öz uğurlarımız qədər sevinirik. Əminəm ki, Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu bundan sonra da inkişaf edəcək və güclənəcəkdir", - deyə məktubda vurğulanıb.

Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğana möhkəm cansağlığı, işlərində uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıb.

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Cəbrayıl və Füzuli rayonlarının işğalının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıb

Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Cəbrayıl və Füzuli rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıb.

AZƏRTAC Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının bəyanatını təqdim edir.

1993-cü ilin 23 avqust tarixində Cəbrayıl və Füzuli rayonları təcavüzkar Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Cəbrayıl rayonunun işğal edilmiş 1050 kvadratkilometr ərazisindən 60 minə yaxın əhali etnik təmizlənməyə məruz qalıb, rayon mərkəzi və 90 kənd erməni vandalizmi nəticəsində məhv edilib. Həmçinin 400 nəfər şəhid olub, 91 nəfər əsir və itkin düşüb və 177 nəfər əlil olub.

Füzuli rayonunun mərkəzi və 50 kəndinin Ermənistan ordusu tərəfindən işğalı nəticəsində 657 nəfər şəhid olub, 181 nəfər əsir və itkin düşüb və 400 nəfərədək rayon sakini əlil olub.

Təcavüzkar Ermənistanın münaqişənin əvvəlində iddia etdiyi əzəli torpağımız olan Dağlıq Qarabağdan əlavə ətraf 7 rayonu da işğal etməsi, onun əsl məqsədinin güc yolu ilə ərazilərimizi ilhaq etmək olduğunu göstərir. Həmin ərazilərə kənardan etnik ermənilərin qanunsuz köçürülməsi siyasəti də bunu təsdiq edir.

Bir daha bəyan edirik ki, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli və davamlı həlli yalnız təcavüzkar Ermənistan silahlı qüvvələrinin bütün işğal olunmuş ərazilərimizdən çıxarılmasından və etnik təmizləməyə məruz qalmış soydaşlarımızın öz doğma torpaqlarına qayıdışından sonra mümkündür.



Səngər də Vətəndir!

3-cü səhifədə



“Dağlar bizə əyilməzlik öyrədib”

5-ci səhifədə



Qəhrəmanlıq azərbaycançılıqdır

6-cı səhifədə



“Bura Vətəndir!”

7-ci səhifədə

# Prezident İlham Əliyev: "Dəniz Kuboku" yarışları bütün iştirakçı ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcəkdir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*



AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

- Hörmətli cənab nazir, sizi yenidən Azərbaycanda görməyimə şadam. Mən sizinlə əvvəlki görüşümüzü xatırlayıram. Təqribən bir il bundan əvvəl siz bizim ölkəmizə gəlmişdiniz. O vaxt Bakıda MDB Müdafiə Nazirləri Şurasının iclası keçirilirdi. Bu gün Bakıda Ordu Oyunlarının bir hissəsi olan "Dəniz Kuboku" yarışı açılır. Bildiyiniz kimi, Azərbaycan ənənəvi olaraq Ordu Oyunlarında iştirak edir və ənənəvi olaraq "Dəniz Kuboku" yarışlarına ev sahibliyi edir. Düşünürəm ki, bu yarışlar bundan sonra da həmin yarışlarda iştirak edən bütün ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Ordu Oyunlarının təşəbbüskarı Rusiyadır və əsas yarışlar da Rusiya ərazisində keçirilir. Bizim tankçılar tank biatlonunda iştirak edirlər. Bu, görüşmək və hərbi sahədə əməkdaşlığımızın perspektivi ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparmaq üçün yaxşı imkandır. Bu məsələlər bizim dövlətlərarası münasibətlərimizin çox geniş gündəliyinin tərkib hissəsidir.

Lap yaxın günlərdə Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin ilə telefon söhbətimiz olub. Söhbət zamanı biz regional təhlükəsizliklə, regional problemlərlə bağlı məsələləri müzakirə etdik. Sabah Azərbaycanın Xarici İşlər nazirinin Rusiya Federasiyasına rəsmi səfəri başlanır. Əminəm ki, xarici siyasət idarələrinin rəhbərləri arasında aparılacaq müzakirələr faydalı olacaq. Onlar münasibətlərimizdə yaranmış dinamikanı, habelə əlaqələrimizin inkişaf perspektivlərini müzakirə edəcəklər. Bir sözlə, dialoq gedir və şadam ki, siz yenə bizə gəlmisiniz. Azərbaycanda vaxtınızın xoş keçməsini arzu edirəm.

Rusiyanın Müdafiə naziri Sergey Şoyqu dedi:

- Sağ olun, hörmətli cənab Prezident. Mənim üçün Azərbaycana səfər həmişə fikir mübadiləsi aparmaq və regional təhlükəsizlik məsələlərini, həmçinin bizim hərbi və hərbi-texniki əməkdaşlığımızla bağlı məsələləri müzakirə etmək üçün yaxşı fürsətdir. Burada prezidentlərə məruzə etməli, müzakirə olunmalı məsələlər var. Bütün dünyanı bürümüş pandemiya təəssüf ki, bizim əməkdaşlıq planlarımıza da təsir göstərir. Lakin mən əminəm ki, bu gün mənim həmkarım, Azərbaycanın Müdafiə naziri ilə pandemiya ucbatından gerçəkləşdirə bilmədiyimiz məsələlərin əvəzini necə çıxmağı və bu gün mövcud olan qrafikə və rejimə necə daxil olmağı müzakirə edəcəyik.

Dünən Azərbaycan heyəti start götürdü. Biz onu müşahidə edirdik. Heyət heç də pis start götürmədi. Mən tank biatlonunu nəzərdə tuturam. Azərbaycan komandası qalan yarışlarda da kifayət qədər yaxşı çıxış edir. Mən bu komandaya uğurlar arzu edirəm. Əlbəttə, bu tədbirlər və keçirilən sərgi dünyada geniş işıqlandırılır. Onu da qeyd etməmək olmaz ki, bizim bu sərgidə göstərdiklərimiz bu gün üçün ən müasir silahlardır. Bu gün biz mənim həmkarımla bunu da müzakirə edəcəyik. Ümidvaram ki, əldən çıxmış fürsətləri orada bərpa etmək imkanı olacaq. Digər tərəfdən bizi sevindirməyə bilməz ki, Azərbaycan və onun komandası ənənəvi olaraq Xəzərdə keçirilən yarışlara ev sahibliyi edir. Bu yarışlar həmişə yüksək səviyyədə keçirilir. Ona görə ki, burada ənənəvi qonaqpərvərlik və bu yarışların təşkili, əlbəttə, ən yüksək səviyyədədir. Əvvəllər bu yarışlar on ölkədə keçirilirdi, lakin təəssüf ki, pandemiya səbəbindən ölkələrin sayı beşə enib. Xoşbəxtlikdən Azərbaycan bu beşlikdə qalıb. Sağ olun ki, bizimlə görüşməyə vaxt və imkan tapmısınız.

# Azərbaycan və Rusiya Müdafiə nazirləri hərbi əməkdaşlıq məsələlərini müzakirə ediblər




Avqustun 25-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyasının müdafiə naziri ordu generalı Sergey Şoyqu ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqları salamlayan Azərbaycanın Müdafiə naziri vurğulayıb ki, dövlətlərimizin başçılarının dostluq münasibətləri ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik inkişafını müəyyənləşdirir.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Zakir Həsənov bildirib ki, Ermənistanın işğalçılıq siyasəti təkcə Azərbaycanda deyil, bütün regionda sülhə, sabitliyə, təhlükəsizliyə əsas təhdiddir. Ermənistan tərəfinin Tovuz rayonu istiqamətində törətdiyi son təxribatlara da toxunan general-polkovnik Zakir Həsənov qeyd edib ki, bu, Azərbaycan ilə MDB ölkələri arasında əlaqələrin sarsıdılmasına yönəldilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiya Federasiyasının rolunu qeyd edən Azərbaycanın Müdafiə naziri vurğulayıb ki, bütün beynəlxalq təşkilatlar kimi Rusiya da ölkəmizin ərazi bütövlüyünü tanıyır, onun müstəqilliyinə və suverenliyinə hörmətlə yanaşır.

Səmimi qəbula görə Azərbaycan tərəfinə təşəkkürünü bildirən Rusiyanın Müdafiə naziri Ermənistanla sərhəddə baş vermiş son döyüş toqquşmaları zamanı şəhid olmuş Azərbaycan hərbi qulluqçularının ailə üzvlərinə dərin hüznlə başsağlığı verib.

Ordu generalı Sergey Şoyqu Rusiyadan Ermənistana təyyarələr vasitəsilə silahların daşınması barədə son zamanlar mətbuatda yayılan məlumatlara münasibət bildirərək qeyd edib ki, bu hərbi daşınmalar Ermənistana silah və hərbi texnikanın, həmçinin digər hərbi əmlakın tədarükü üçün deyil, Rusiyanın bu ölkədəki 102-ci hərbi bazasına genişmiqyaslı tikinti işlərinin aparılması üçün nəzərdə tutulan tikinti materiallarının çatdırılması və həmin bazada xidmət edən çağırışçıların rotasiyası məqsədilə həyata keçirilib. O, xüsusilə qeyd edib ki, Rusiya bu günədək Azərbaycana qarşı yönələn heç bir addım atmayıb və bundan sonra da atmayacaq.

Tərəflər həmçinin beynəlxalq və regional təhlükəsizlik məsələləri, hərbi sahədə əməkdaşlığın mövcud vəziyyəti və əlaqələrin inkişaf perspektivlərini müzakirə edib, hərbi-texniki əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# "Dəniz kuboku" beynəlxalq müsabiqəsinin açılış mərasimi keçirilib



*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, avqustun 25-də Azərbaycan Hərbi Dəniz Qüvvələrinin bazasında "Dəniz kuboku" beynəlxalq müsabiqəsinin açılış mərasimi keçirilib.*

Tədbirdə Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Rusiyanın Müdafiə naziri ordu generalı Sergey Şoyqu və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə qonaqlar ümummilli liderimiz Heydər Əliyevin Hərbi Dəniz Qüvvələri qərargahı qarşısında ucaldılan abidəsi önünə gül dəstələri qoyaraq öz ehtiramlarını ifadə ediblər.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov mərasim iştirakçılarını və qonaqları salamlayaraq "Dəniz kuboku" beynəlxalq müsabiqəsini açıq elan edib.

Rusiyanın Müdafiə naziri ordu generalı Sergey Şoyqu tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib.

*Ön xətdən reportaj*

# Səngər də Vətəndir!

*Bir yay səhəri yenə əsgərlərlə görüşə gedirik. Ön xəttə səfərə çıxan zaman artıq asimanda yerini tutan günəş Yer kürəsinə meydan oxuyurdu. Yayın bürkülü istisi rahatlığımızı əlimizdən alsa da, qəlbimiz gedəcəyimiz məkanla, daha doğrusu, o məkanı qoruyan oğullarımızla döyünürdü. Yolboyu düşünürəm, Vətənə, Vətəni qoruyanlara sevgi və istəkdir bizə bu çətinliyi unutduran.*



Qarabağımızın dilbər guşələrindən birinə çatanda həmin istidən əsər-əlamət qalmamışdı. Nəzərdə tutulan məkana çatanda adama elə gəlirdi ki, sanki üfüq dalğalanır. Sanki cənnətin qoynuna düşmüşük, əlimiz Qarabağ dağlarının ətəyindədir. Qeyri-ixtiyari gözlərim daha uzaqlara, başı qarlı Qarabağ dağlarına zillənir. Fikirləşirəm, görəsən, bu dağlar nələrin şahidi olmayıb. Bu dağlar Qaradağlı faciəsinə, Ağdaban faciəsinə, bəşəriyyəti dəhşətə gətirən Xocalı faciəsinə şahidlik edib. Həmçinin dağlar Azərbaycan Ordusunun Aprel zəfəri kimi, Tovuz istiqamətində gedən döyüşlər kimi hadisələrin də şahidi olub. Bu hadisələrin qəhrəmanı isə Azərbaycan əsgəridir. Onlardır bu Vətəni qoruyan. Onlardır bizə ard-arda qələbələr bəxş edən.



Azərbaycan əsgəri ilə növbəti görüşümüz "N" hərbi hissəsində reallaşdı. Bizi qarşılayan zabit Eldəniz İsmayılov ilk öncə hərbi qulluqçularımızın Vətən təəssübkeşliyindən, yurda bağlılığının kifayət qədər yüksək olmasından söz açır. "Bu gün Azərbaycan Ordusunda uğurları təmin edən başlıca amillərdən biri də dəmir nizam-intizamın yaradılması, habelə şəxsi heyətin yüksək vətənpərvərlik ovqatında yetişdirilməsidir. Təcrübə göstərir ki, döyüş ruhu olmayan orduya uğur qazanmaqda ən müasir silahlar belə kömək etmir. Bu gün Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji durumu, hərbi vətənpərvərlik əhval-ruhiyyəsi yüksək səviyyədədir.

Zabit onu da qeyd edir ki, qüdrətli Azərbaycan Ordusunun mövcud olması hər bir Azərbaycan vətəndaşının arzusu idi. "Bu gün ordumuzun qarşısında duran əsas vəzifə odur ki, Ali Baş Komandan əmr verərsə, torpaqlarımız müharibə yolu ilə işğaldan azad edilsin. Həm ordumuzun bugünkü vəziyyəti, həm də son zamanlar döyüş meydanında əldə edilən uğurlar göstərir ki, Azərbaycan Ordusu tarixi vəzifənin öhdəsindən gəlməyə tam hazırdır. Azərbaycan Ordusu müstəqilliyimizi əbədi qorumaq, ərazi bütövlüyümüzü bərpa etmək gücündədir. Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir. Xalqımız ordusuna güvənir, ordusunu sevir və hər zaman da ordusunun arxasındadır. Ordumuzun şəxsi heyəti isə xalqımızın arzusunu həyata keçirmək eşqi ilə alışıb-yanır".



Hərbi hissədə vaxt itirmədən zabit Eldəniz İsmayılovla birgə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Ruslan Əsədovun idarə etdiyi avtomobildə səngərə yola düşürük.

Zabit Eldəniz İsmayılov getdiyimiz yolu göstərərək qeyd edir ki, bu yol arzudan gerçəkliyə gedən yoldur. Bu yollar bizi Qələbəyə aparacaq. Onda yolun müqəddəsliyi bir daha təsdiqini tapacaq. O zaman bu yollar digər yollardan fərqlənəcək. Yəqin ki, zamanında bu yollara qələbə çələngləri düzüləcək.

Səngərə çatanda artıq Günəş qürub edirdi. Burada hiss etdim ki, ılıq bir istiliyin, hərarətin dalğası məni öz qoynuna alıb. Bu dalğanın haradan gəldiyini, nədən qaynaqlandığını deməyə ehtiyac yoxdur. Onun adı Azərbaycan əsgəridir.

Düşündüklərimi duyurmuş kimi baş leytenant Əli Camalzadə vurğulayır ki, Azərbaycan əsgəri ona qarşı atılan hər bir güllənin cavabını verəcək. Azərbaycan əsgərinin sayəsində torpaqlarımız etibarlı şəkildə qorunur. Zabit onu da bildirir ki, bu gün atalardan oğullara qalan ərməğan: sıx birlik, Vətən təəssübkeşliyi, yurda bağlılıqdı. "Doğma yurdumuz tarix boyu torpağımıza göz dikənlərə qeyrətdən, Vətən sevgisindən, torpaq təəssübkeşliyindən ucaldılmış bir sədd olub. Çünki bu yurdun hər daşı sevgidən, Vətən məhəbbətindən, şəhid qanından yoğurulub. Belə oğulları olan millət gec-tez Vətən torpaqlarına uzaqdan baxmağa son qoyacaq".

Əsgər Elvin İsgəndərov qeyd edir ki, düşmənlərimiz yüz illər boyu bu torpaqlara sahiblənməyə çalışıblar, ancaq acı məğlubiyyətdən başqa heç nə əldə edə bilməyiblər. Odur ki, qədim Oğuz yurdunun tarixin hər səhifəsində min-min salnaməsi var. Bu salnamələr isə bizə deyir: Bura Vətəndir, bura doğma Qarabağımızın qeyrət rəmzi, yenilməzlik simvoludur.

"Düşmənlə üz-üzə dayanmaq nə məni, nə də digər əsgər yoldaşlarımı qorxudur. Hər dəfə postdan düşmənə sarı baxanda onlara hər an döyüşə hazır olduğumuzu hiss etdiririk. Biz get-gedə güclənirik, qüdrətlənirik. Çünki öz torpağımızın üzərində gəzir, öz torpağımızı qoruyuruq. Başa düşürük ki, itirdiklərimizi geriyə qaytarmaqdan ötrü daha güclü, qətiyyətli, əlbir və hazır vəziyyətdə olmalıyıq. Düşmənlərimiz isə qarşıdakı ərazilərdə müvəqqəti olduqlarını yaxşı anlayırlar", - deyə əsgər Elçin Mahmudov söhbətə qoşulur.

"Deyirlər, Vətən səngərdən başlayır. Bu səngərdə Vətənin keşiyində duranlar isə ən şərəfli vəzifənin daşıyıcılarıdır. Həmişə əsgər yoldaşlarıma deyirəm ki, səngər qorunursa, Vətən də qorunur. Səngərdə düşmənlə gecə-gündüz üz-üzə dayanan Azərbaycan əsgəri hər an ayıq-sayıq olmalıdır. Biz hər birimiz üzərmizə düşən vəzifə borcumuzu dərk edirik.". Bu sözləri isə əsgər Rəfael Quliyev deyir.

Əsgər Əli Əliyev isə qeyd edir ki, bu gün xalqın qəlbi səngərdə döyünür. Daha doğrusu, Vətən indi səngərdən keçir. Vətənin keşiyində ayıq-sayıq dayanmaq isə hisslərimizin ən alisinə çevrilib. Bu ali hissi anlamından da çox... yaşamaq lazımdır. Özümü ona görə xoşbəxt sana bilərəm ki, Vətəni qorumaq payı mənə də düşüb.

Əsgər Tehran Bayramov bildirir ki, səngərdə - ön xətdə xalqın müdafiəsi üçün dayanmış əsgər və zabitlərimizin məqsədi, vəzifəsi birdir - Azərbaycan xalqının qələbəsini təmin etmək. "Şəhidlərimizin qanını yerdə qoymamaq, əsir, itkin düşmüş ana-bacılarımızın qisasını almaq və ən əsası, üçrəngli bayrağımızı bütün və bütöv Azərbaycan ərazisində dalğalandırmaq".

Söhbətimizin bu yerində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şamil Məmmədovun bədahətən dediyi şeir bizlərə həm ötən faciəli günləri xatırladır, həm də könül xoşluğu nəsib edir.

*Şuşam Laçınıma baxıb ağlayır,*
*Xocalı qırğını sinə dağlayır,*
*Ağdam başına qara bağlayır,*
*Dərdə son qoyarıq biz, Vətən oğlu.*

Azərbaycan əsgərinin hünəri sayəsində inanırıq ki, bütün bu arzular, bu ideyalar sonda bir amala köklənir: müstəqillik uğrunda xalqın Qələbəsini təmin etmək. Çox keçməz ki, xalqımızın bu arzusunu şanlı ordumuz tezliklə reallaşdıracaq.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Tovuz döyüşlərində şəhid olan hərbi qulluqçuların anım mərasimləri keçirilib

*Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən döyüşlər zamanı düşmən hücumunun qarşısını alarkən şəhid olan hərbi qulluqçuların anım mərasimləri keçirilib.*



Müdafiə nazirinin tapşırığına əsasən, nazirliyin bir qrup hərbi qulluqçusu general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və digər şəhidlərin məzarlarını ziyarət edərək əklil və gül dəstələri qoyub, xatirələrini ehtiramla yad edib, onların ailə üzvlərinə nazirliyin rəhbərliyi adından bir daha başsağlığı çatdırıblar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müxtəlif bölgələrdə keçirilən anım mərasimlərində şəhidlərin ailə üzvləri, xidmət yoldaşları, yerli icra hakimiyyəti, dövlət strukturları, ictimai təşkilatların nümayəndələri və veteranlar iştirak ediblər.



# Azərbaycan HDQ-nin qərargahında Rusiya nümayəndə heyəti ilə görüş keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, avqustun 24-də Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirovun Rusiya Federasiyası Hərbi Dəniz Donanması Baş Komandanının müavini vitse-admiral Vladimir Kasatonovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü keçirilib.

Görüşdə Xəzər dənizində hərbi əməkdaşlıq məsələlərindən danışılıb, hər iki ölkənin hərbi gəmilərinin qarşılıqlı səfərlərinin təşkili və digər məsələlər müzakirə edilib.

Sonra iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, hakimlər komissiyasının üzvləri, yerli və xarici jurnalistlərin iştirakı ilə mətbuat konfransı keçirilib.

Sonda mətbuat nümayəndələrinin sualları cavablandırılıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**24 avqust 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq, Qaralar kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Mərzili, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**25 avqust 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 45 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi və Ağbulaq kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan tankçıları “Tank biatlonu” müsabiqəsində hədəfləri sərrastlıqla məhv ediblər



*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımız yarışların ilk günündə uğurla çıxış ediblər.*

Azərbaycan tankçıları yer aldıqları qrupda Çin, Belarus və Serbiyadan olan tank heyətləri ilə güclərini sınayıblar.

Tankçılarımız müsabiqənin şərtlərinə əsasən sərrast atəşlə 3 şərti hədəfi məhv edərək, marşrut üzrə müəyyən edilmiş məsafəni qısa müddətdə qət ediblər.

# Müdafiə Nazirliyi: Ermənistan Müdafiə Nazirliyinin istənilən faktı inkar və təkzib etməsi artıq heç kəsdə şübhə doğurmur

*Ermənistan Müdafiə Nazirliyinin erməni zabitin guya yolu azaraq Azərbaycan tərəfinə keçməsi ilə bağlı açıqlamasına Azərbaycan Müdafiə Nazirliyindən münasibət bildiriblər.*

Azərbaycan Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Müdafiə Nazirliyinin istənilən faktı inkar və təkzib etməsi artıq heç kəsdə şübhə doğurmur. Xüsusi tapşırıq yerinə yetirən diversiya-kəşfiyyat qrupunun komandiri baş leytenant Qurgen Alaverdyanın əsir götürülməsi faktını Ermənistan Müdafiə Nazirliyi zabit guya dayaq məntəqəsini yoxlayarkən əlverişsiz hava şəraiti ucbatından "yolu azaraq itkin düşüb" deməklə təkzib etməyə çalışır. Tapşırıq icra edərkən əsir götürülən zabit hərbi geyim formasında olmasaydı, sözsüz ki, Ermənistan Müdafiə Nazirliyi onu bu dəfə də ya çoban, ya da ruhi xəstə kimi qələmə verəcəkdi.

Əgər bir zabit "itir" və 24 saatdan da artıq vaxt keçməsinə baxmayaraq, bu barədə ictimaiyyətə heç bir məlumat verilmirsə, bu, Ermənistan ordusunda özbaşınalığın, intizamsızlığın hökm sürdüyünü, artan cinayət hadisələrinin, qeyri-döyüş itkilərinin daim və məqsədyönlü şəkildə ictimaiyyətdən gizlədildiyini bir daha sübut edir. Hər dəfə təxribat qrupuna bələdçilik edən Ermənistan vətəndaşı və ya qrupunun üzvü Azərbaycan Ordusunun bölmələri tərəfindən ələ keçirildikdən sonra qarşı tərəf eyni ssenariyə əsasən bu şəxsləri psixi problemləri olan kənd sakini, ruhi xəstə, çoban, cinayət törətmiş kriminal element və sərxoş halda yolunu azaraq itkin düşən kimi təqdim edir.

Qeyd edək ki, Ermənistanın bu təxribatının da qarşısı Azərbaycan Ordusunun ayıq-sayıqlığı və peşəkarlığı nəticəsində qətiyyətlə alınıb.

Qoşunların təmas xəttində və Ermənistan-Azərbaycan dövlət sərhədi istiqamətində vəziyyətin gərginləşməsinə görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Nümunəvi xidmət

# "Dağlar bizə əyilməzlik öyrədib"

Gizir Malik Ağayevi ötənilki ezamiyyətdən tanıyıram. Onu tanımamaq, yadda saxlamamaq mümkün deyil. Çünki sifət cizgiləri çox diqqətçəkəndir, yaddaqalandır. Üz-gözündən igidlik və cəsurluq yağır, döyüş ovqatı və qələbə əzmi duyulur. İnanıram ki, sülh danışıqları baş tutmasa, torpaqlarımızın azadlığı uğrunda döyüşlər başlasa, Malik ön sırada vuruşanlardan, erməni qəsbkarlarına sarsıdıcı zərbələr vuranlardan biri və birincisi olacaq. Dəqiq atəşləri ilə yurdumuzu zəbt etmək istəyən erməni işğalçılarını məhv edəcək. Savaşda böyük hünər və qəhrəmanlıq göstərəcək. Döyüşlərdən geriyə Qələbə müjdəsi ilə dönəcək.

Yurdumuzun keşiyində ayıqsayıq dayanan gizir Malik Ağayevin cəsurluq yağan simasına, qartal baxışlı gözlərinə diqqətlə baxanda düşünürəm ki, əgər hansısa bir rəssam Azərbaycan hərbçisinin portretini çəkmək fikrinə düşsə, yəqin, Malikin üz cizgilərini etalon götürərdi. Çünki gizirin üzündə hərbçilərə xas olan bütün cizgilər var. Biz də qələmi fırça edib, sözü rəngə çevirib oxucularımız üçün onun portretini yaratmağa çalışacağıq.

Yəqin ki, Malikin bu cür yaddaqalan görkəmi onun daxili aləminin zənginliyindən, vətənpərvərliyindən, cəsarət və hünərindən xəbər verir. Deyirlər ki, görünən dağa bələdçi lazım deyil. Həm də deyirlər ki, göz qəlbin aynasıdır. Gizir Malik Ağayevin də ürəyində, qəlbində dolaşan vətənpərvərliyi, yurdsevərliyi, torpağa bağlılığı üzündə, gözlərində büruzə verir. Onun bir baxışından vətənpərvər hərbçi olduğu hiss olunur. Təbii ki, vətənpərvərlik hissi insanda bir-iki günün içərisində formalaşmır. Bu, illərin, ayların işidir. Burada ailənin və məktəbin də rolu danılmazdır. Görünür ki, ailə və məktəb tərbiyəsi Malikin həyatında bir-biri ilə üst-üstə düşüb, bir-birini tamamlayıb. Ona görə də gizir M.Ağayev bu cür vətənpərvər böyüyüb. Vətənpərvərlərin məskəni, məkanı ordu sıralarıdır, səngərlərdir. Deməк olar ki, gizir Ağayev xidmətə gələnə qədər böyük bir vətənpərvərlik yolu keçib, Vətən sevgisindən güc alıb, torpaq istəyindən qidalanıb. Sonda da bu cür cəsur hərbçi kimi formalaşıb. O, bacarığı və işgüzarlığı ilə özünə belə cəsur oğulların çiyinlərində dayanır. Bu çiyinlər isə qaya kimi möhkəm, polad kimi əyilməzdir. Dağlar bizə əyilməzlik öyrədib.

- Vətən torpaqlarını qorumaq, səngər həyatı yaşamaq, yurda keşik çəkmək şərəfli işdir, - deyə gizir Malik Ağayev bizimlə söhbətə başladı. - Belə bir şərəfli və layiqli vəzifəni daha başqa peşə də seçə bilərdi. Amma Malik Vətənin çağırışına səs verib, torpaqlarımızın müdafiəsinə tələsib. Arzu və istəyinə çatıb, əlində silah Vətən torpaqlarının keşiyində dayanır, onu erməni qəsbkarlarının hücumlarından qoruyur. Qoruyur ki, xalqımız sakitlikdə, əmin-amanlıqda və sülh şəraitində yaşasın. Xalq isə onun təhlükəsizliyini, müstəqilliyini göz bəbəyi kimi qoruyan oğulları ilə həmişə fəxr edib öyünür. Əminlik hissi ilə deyə bilərəm ki, xalqımızın öyündüyü oğullardan biri də gizir Malik Ağayevdir. Bizi sevindirən odur ki, belə cəsur oğullarımız yüzlərlədir, minlərlədir. Hansı mövqeyə, hansı səngərə gediriksə, belə cəsur hərbçilərimizlə qarşılaşırıq. Hər dəfə onları görəndə ürəyimiz dağa dönür, sevinirik. Bu gün Vətən torpaqları şıdığıma görə qürur hissi keçirirəm. Hərbçi olmaq, torpağı qorumaq çoxdankı arzum idi. İnsanı yaşadan, onu bu gündən sabahlara daşıyan ürəyində qövr edən arzu və istəklərdir. Bu arzular daim həyat yollarımızın qaranlıqlarına işıq saçır, əlimizdən tutub bizi gələcəyə doğru aparır. Hərbçi olmaq arzusuna çatdığıma görə özümü xoşbəxt hiss edirəm. Cəsur əsgərlərimizlə çiyin-çiyinə verib yurdumuzu erməni işğalçılarından qoruyuruq. Vətən qarşısındakı övladlıq borcumuzu cəsarətlə yerinə yetirməyə çalışırıq.



Səngərlərdə, yurdumuza keşik çəkən əsgərlərlə söhbətdən bir daha əmin olduq ki, qaya kimi möhkəm, polad kimi oğullarımız yurdumuzu göz bəbəyi kimi qoruyacaqlar.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Veteranlara Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə bağlı yubiley medalları təqdim olunub

*Bəşəriyyət üçün faciəli dövr kimi xatırlanan İkinci Dünya müharibəsi mayın 9-da SSRİ-nin qələbəsi ilə başa çatıb və faşizm süqut edib. Bu gün fəxrlə söyləmək olar ki, Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb.*

Həmin müharibədə göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və digər yaşayış məntəqələri uğrunda rəşadətlə döyüşüblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatından AZƏRTAC-a bildiriblər ki, təşkilatın sədri istefada olan general-polkovnik Tofiq Ağahüseynov Bakı şəhərinin Binəqədi, Nəsimi, Nizami, Suraxanı və Qaradağ rayon veteranlar təşkilatlarının sədrlərini Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin 2019-cu il 13 iyun tarixli Sərəncamı ilə təsis olunan "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi" yubiley medalı ilə təltif edib.

General-polkovnik Tofiq Ağahüseynov qeyd edib ki, müharibə illərində Azərbaycan xalqının göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla anılır. Böyük Qələbənin qazanılmasından 75 il ötsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt əhəmiyyətini itirmir. O bildirib ki, gün gələcək qəhrəman Azərbaycan xalqı da Qarabağın və işğal olunan rayonlarımızın düşməndən azad edildiyi günü Qələbə bayramı kimi qeyd edəcək. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə güclü ordumuzun qələbə qazanacağı o gün isə uzaqda deyil.

Rayon veteran təşkilatlarının sədrləri yubiley medallarına layiq görüldüklərinə görə Prezident İlham Əliyevə və Respublika Veteranlar Təşkilatının rəhbərliyinə dərin minnətdarlıqlarını çatdırıblar.

# Əlahiddə Ümumqoşun Ordunun tankçıları peşəkarlıq nümayiş etdirirlər

*Naxçıvan Qarnizonu Qoşunlarında yay tədris dövrünün planına uyğun olaraq, bölmələr tərkibində təşkil olunan məşğələlərdə Əlahiddə Ümumqoşun Ordunun tankçıları peşəkarlıq nümayiş etdirirlər.*



Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrinin Təlim-Tədris mərkəzlərində quraşdırılmış xüsusi proqram təminatlı kompüterlərdə və müxtəlif məşq qurğularında şəxsi heyətin sürücülük və atəş üzrə bacarıqları təkmilləşdirilir. Tank bölmələri ilə keçirilən məşğələlərdə əsas diqqət şəxsi heyətin ərazinin çətin relyef və məhdudgörmə şəraitində texnikanı bacarıqla idarə etməsinə, döyüş sahəsində hədəfləri qısa zamanda məhv edərək döyüş tapşırığının müvəffəqiyyətlə icrasına yönəldilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, virtual təlim meydanında mərmi və yanacaq sərf etmədən qazanılan bacarıqlar səhra şəraitində təşkil olunan praktiki məşğələlərdə yerinə yetirilmiş tapşırıqların icra vəziyyəti ilə qiymətləndirilir.



Hazırda tank birləşmələrində olduğu kimi, Naxçıvan Qarnizonu Qoşunlarının bütün birləşmə, hissə və bölmələrində həm virtual, həm də təlim mərkəzlərində praktiki məşğələlər keçirilir.

# Qəhrəmanlıq azərbaycançılıqdır

*Xalqımızın igid oğulları, mərd qızları heç vaxt Vətənimizi darda qoymayıblar. Onlar yadelli düşmənə qarşı son damla qanlarına qədər vuruşub, doğma diyarımızın istiqlalı, ölkəmizin müstəqilliyi və azadlığı yolunda şəhidlik zirvəsinə ucalıblar.*



Xalqımız da haqlı olaraq daima onlarla öyünür, əbədi olaraq qəlblərində yaşadırlar. Vətənimizin mənafeyini hər şeydən üstün tutan müdafiəçilərimizin keçdiyi döyüş yolu hamımız üçün örnəkdir. Onların ruhu hər birimizi böyük qələbəyə, torpaqlarımızı azad etməyə, şəhidlərimizin qisasını almağa səsləyir. Hansı peşənin nümayəndəsi olmağımızdan asılı olmayaraq, hamımız Vətənimizin əsgəriyik. Hər an düşməni törətdikləri vəhşiliklərə görə peşman etməyə hazırıq. Bizi yalnız bir amal birləşdirir - Vətən torpaqlarını yağılardan qorumaq, işğalda olan torpaqlarımızı azad etmək.

Torpaqlarımızın bir qisminin işğal edilməsinə baxmayaraq, müharibə hələ bitməyib. 2016-cı ilin aprelində ermənilər təxribat törətmək istədi, ancaq döyüşlərdə məğlub oldular. Azərbaycan əsgəri torpaqlarımızın bir qismini işğaldan azad etdi. Lakin düşmən uğursuzluğu ilə barışmaq istəmir, nəzarətindən çıxan torpaqları geri qaytarmaq üçün əlverişli fürsət axtarır. Ancaq hər dəfə bədxah niyyətlərinə çata bilmir. Çünki düşmənin qarşısında cəsur, mərd və qorxmaz Azərbaycan əsgəri dayanıb. Boş yerə deməyiblər, Azərbaycan qəhrəmanlar diyarı, igidlər və cəsurlar məskənidir. Cari ilin iyulunda da xalqımız yeni qəhrəmanları ilə tanış oldu. Vətən sevgisi döyüş meydanında generalı əsgərdən ayırmadı. Hər biri düşməni məhv etmək arzusu ilə alışıb yanırdı. Polad Həşimov, İlqar Mirzəyev, Xəyyam Daşdəmirov, Elşad Məmmədov, Vüqar Sadıqov, Rəşad Mahmudov, Anar Novruzov, Namiq Əhmədov, Elçin Mustafazadə, İlqar Zeynallı, Yaşar Babayev, Nazim İsmayılov kimi oğullarımız mərdliyin, cəsarətin zirvəsinə yüksələrək, qəhrəman oldular. Biz də Vətənimiz üçün yaşamış igidlərimizi unutmuruq, unutmayacağıq.

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində olduğumuz zaman da qəhrəmanlarımıza olan ehtiramın şahidi olduq. Hərbi hissənin qərargahında şəhidlərimizin şəkillərinin əks olunduğu lövhənin qarşısında düzülən əsgərləri gördük. Zabit Rəşad Əliyev şəxsi heyətə igidlərimizin qəhrəmanlığı haqqında danışır, onları gənc nəslə örnək göstərirdi. Zabit dedi ki, şəhidlərimiz bizim qürur mənbəyimizdir. "Hər bir xalqın dayağı və güvənc yeri onun ordusu və bu orduda xidmət edən mərd oğullarıdır. Ölkəmiz də hər zaman öz qəhrəmanları ilə tanınır. Bu şəkildə onlardan bir qismini görürük. Biz çalışmalıyıq ki, onların adına layiqli xidmət edək. Bunun üçün isə yüksək bilik və bacarığa yiyələnməliyik. Tutduğumuz vəzifəni, daşıdığımız silahı dərindən öyrənməliyik. Döyüş əmri veriləndə hər birimiz bir nəfər kimi hazır olmalıyıq. Əminliklə deyə bilərəm ki, o gün uzaqda deyil. Tezliklə Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad edəcək, şəhidlərimizin qisasını alacaq, doğma el-obasından didərgin düşən soydaşlarımız qədim yurd yerlərinə qayıdacaqlar".




Zabit Rəşad Əliyev 2020-ci ilin iyulunda düşmən təxribatının qarşısını alan oğullarımız haqqında şəxsi heyətə ətraflı məlumat verdi. Onların xidmət etdiyi ərazilər və hansı şəraitdə şəhid olduqları haqqında danışdı. "Onlar məmləkətimizin ən görkəmli oğullarıdır. Bu gün əsas məqsədimiz şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə saxlanılması, Vətən uğrunda gedən döyüşlərdə şücaət göstərmiş oğullarımızın tanıdılması, onların həyatı, keçdiyi şərəfli döyüş yolları, göstərdikləri müstəsna xidmətlərini təbliğ etməkdən ibarətdir. Biz onların keçdiyi bu şərəfli yolu unutmamalı, daim yaşadılması üçün çalışmalıyıq".

- Vətən səngərdən başlayır, - deyə əsgər Ülvi Ağalarov sözünə başladı. - Şəhidlərimizin qanı ilə boyanmış səngərdə xidmət etməyimlə fəxr edirəm. Onlar Vətənimizin azadlığı uğrunda vuruşublar, çarpışıblar, şəhidlik zirvəsinə ucalıblar. Torpaqlarımızın erməni təcavüzkarlarından müdafiə edilməsində iştirak etmək hamımızın müqəddəs borcudur. Bu gün Vətənini şəxsi mənafeyindən üstün tutan oğullarımızın davamçısı olmağımla qürur duyuram. Onlar düşmənin təxribatının qarşısını aldılar. Bizim üzərimizə isə torpaqlarımızı işğaldan azad etmək düşür. Bunun üçün komandirlərimizin verdiyi əmr və tapşırıqları vaxtında, dəqiq və sözsüz yerinə yetirməliyik.

Əsgər Ruslan Ələkbərov bildirdi ki, hərbi formanı üzərində daşımaq hər bir azərbaycanlının şərəf borcudur. "Vətənimiz uğrunda döyüşlərdə canını fəda edənlərin hekayələri ilə böyümüşük. Hələ uşaq vaxtından onlara bənzəmək istəyirdim. 2016-cı ilin Aprel döyüşlərində yaşım hərbi xidmətə çağırış üçün uyğun gəlmirdi. Ancaq bu gün Vətənimizin müdafiəsində dayanan qardaşlarımızın sıralarındayam. Asudə vaxtlarımızda komandirlərimiz ümummilli liderimiz Heydər Əliyevin müasir ordu quruculuğundan, Milli qəhrəmanlarımızın, şəhidlərimizin keçdiyi şərəfli döyüş yollarından və ölkəmizin hərb tarixindən danışırlar. Tariximizi, onun yetirdiyi şəxsiyyətləri yaxından tanıdıqca fərəhlənirəm. Bütün dünya bilir ki, nə qədər güclü dövlətimiz və qüdrətli ordumuz var. İnanıram ki, tezliklə xalqımıza qələbə sevincini yaşadacağıq".

Əsgərlərdən Firdovsi Babayev, Tural Bağırzadə, Məhəmməd Allahverdiyev və Nurlan Lavdannikov dedilər ki, şəhidlərimizin adı heç vaxt yaddaşımızdan silinməyəcək. Əgər bu gün bayrağımız yüzlərlə müstəqil dövlətin bayraqları ilə bir sırada dalğalanırsa, bu həmin oğullarımızın sayəsindədir.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

*Fiziki hazırlıq*

# “İdman həmişə vacibdir”

*Müasir dönəmdə güclü ordunun şəxsi heyətinin yüksək fiziki göstəriciyə malik olması vacib şərtdir. Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır. Mütəmadi olaraq fiziki hazırlığın təşkili nəticəsində Azərbaycan Ordusu həm mənəvi, həm taktiki, həm də fiziki cəhətdən güclü ordu olduğunu sübut edib. Hazırda ordumuzun hərbi qulluqçularının fiziki göstəricilərini təkmilləşdirmək məqsədilə bölmələrdə hər bir şərait yaradılıb. İnanırıq ki, bu amil də Azərbaycan Ordusunun inkişafında və gələcək zəfərlərin qazanılmasında mühüm rol oynayacaq.*

"N" hərbi hissəsində şəxsi heyətin fiziki hazırlığı ilə yaxından tanış olduq. Əsgərlərin baxışlarından bəlli olurdu ki, şəxsi heyət fiziki cəhətdən güclüdür və hər an Ali Baş Komandanın döyüş əmrinə hazırdırlar. Məşğələ rəhbəri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Əli Paşalının müşayiətiylə əsgərlər fiziki hazırlıq məşğələsi ilə məşğuldu. Əli az müddətdir ki, ordu sıralarında xidmət edir. Vətən sevgisi, torpaq həsrəti onu orduya gətirib. Əli Paşalı inanır ki, ordumuz tezliklə işğal olunmuş torpaqlarımızı azad edəcək, xalqımızı Böyük Qələbə ilə sevindirəcək.

Öyrənirik ki, əsgərlərimizin bir çoxu hərbi xidmətə çağırılmamışdan əvvəl müxtəlif idman növü ilə məşğul olublar. Əsgər Arif Musayev 4 il idmanın boks növü ilə məşğul olub və 2 dəfə respublika çempionu adına layiq görülüb. Ə.Paşalı bildirdi ki, əsgər Musayev öz idman göstəriciləri ilə digər əsgərlərə nümunə göstərir və köməklik edir.

Əsgər Rəsul Rəsulzadə hərbi xidmətdən əvvəl idmanın Kinq-boks növü ilə məşğul olub. O, hərbi xidmət zamanı idmançı olmağın ona çox kömək olduğunu vurğuladı. “Bütün idman normativlərini vaxtında və düzgün şəkildə yerinə yetiririk. İdman əsgərlərin sağlamlığı üçün vacib şərtdir”.



Digər əsgər Nicat Məmmədov da hərbi xidmətdən əvvəl 2 il idmanın boks növü ilə məşğul olub. Cari ildə Siyəzən birinciliyinə yüksəlib. Bu gün öz nailiyyəti ilə fəxr edən əsgər üçün ən böyük qələbə işğalda olan torpaqlarımızın azad olunmasıdır.

Vətənin keşiyində dayanan hərbi qulluqçularımızla söhbətimizdən bir daha əmin olduq ki, ordumuzun şəxsi heyətinin fiziki hazırlığı yüksək səviyyədədir. Fiziki hazırlıq da döyüş hazırlığının ayrılmaz hissəsi olduğu üçün burada əldə edilən nailiyyət gələcək döyüşlərdə qələbə deməkdir. İnanırıq ki, fiziki cəhətdən güclü və sağlam olan gənclərimiz torpaqlarımızı işğaldan azad edəcək, üçrəngli bayrağımızı Şuşada, Xankəndidə, Laçında və digər işğalda olan torpaqlarımızda dalğalandıracaq.

**Kursant**
**Əli ABIYEV**

*Bir vaxtlar Vətən sözü, bu sözün ifadə etdiyi məzmun dərsliklərdən, oxunan əsərlərdən öyrənilirdi. Ona görə də o vaxtlar hamının düşüncəsində bu kəlmə eyni cür ifadə edilirdi. "Haradan başlanır Vətən?" sorğusuna hamı müxtəlif cavablar versə də, çoxusu bir-birinə bənzəyirdi. İndi belə deyil. Biz gənclər Vətən kəlməsinin nə olduğunu ruhumuzla dərk edirik.*

*Vətənpərvərlik*

# "Bura Vətəndir!"



Azərbaycan Rusiya imperiyasının tərkibindəydi. Həmin vaxtlarda bizdən böyüklər - ata-analarımızın yaşıdları "Vətənim SSRİ-dir" deyirdi.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası düşüncələri də dəyişdi. Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildikdən sonra çox şey dəyişdi. Sərhədlər də dəyişdi, Vətən kəlməsinin ifadə etdiyi məzmun da. İndi Vətən kəlməsinə hamı eyni cavab verir: Vətənim Azərbaycandır!

Sizə qardaşım kimi müraciət edirəm, Azərbaycan əsgəri. Siz müstəqil Azərbaycanın vətəndaşlarısınız, siz böyük tarixi şəxsiyyət Heydər Əliyevin nizami ordu kimi formalaşdırdığı ordunun əsgərlərisiniz, siz "Vətənim Azərbaycandır!" deyənlərin inamısınız, güvəncisiniz...

Uşaqlığınızda, yeniyetməliyinizdə atanızdan, məktəbdə müəllimlərinizdən eşidibsiniz ki, Azərbaycan Ordusunda irimiqyaslı islahatlar aparılır. Dövlət ordunu ən müasir silahlarla, texnikalarla təmin edir, ordunun şəxsi heyəti silahlanmaya daxil edilən texnikaların, qurğuların istismarını mükəmməl öyrənir, ordunun maddi-texniki bazası möhkəmlənir. Müxtəlif təyinatlı təlimlər şəxsi heyətin döyüş hazırlığını, Ali Baş Komandanın, eləcə də Müdafiə Nazirliyinin rəhbərliyinin ön xətdə əsgər və zabitlərə tövsiyələr, tapşırıqlar verməsi, hərbi xidmətdə fərqlənənlərin təltif edilməsi, yeni hərbi hissələrin tikilməsi, bütün vacib infrastrukturların təmin edilməsi şəxsi heyətin mənəvi-psixoloji hazırlığının səviyyəsini kifayət qədər yüksəldib. Azərbaycan Ordusunun şəxsi heyəti yüksək döyüş əzminə, qələbə ruhuna malikdir.

Əminəm ki, siz "Haradan başlanır Vətən?" sualına "Əsgər ürəyindən başlanır!" deyəcəksiniz. Vətən kəlməsinin müqəddəsliyini bilirsiniz, bu müqəddəsliyi döyüş növbətçiliyində daha həssaslıqla dərk edirsiniz. Düşmənin bütün tərpənişlərini nəzarətdə saxlayırsınız. Hamınızın bir istəyiniz var: Ali Baş Komandanın əmriylə döyüşlərdə iştirak etmək, Böyük Qələbənin sevincini əsgər kimi yaşamaq. Vətənə xidmətiniz də müqəddəsdi, niyyətiniz də.

Etibar Hüseynov düşmənin hücumunun qarşısı alınsın deyə, özünü tankın altına atdı, Rasim İbrahimov əsir düşməmək üçün özünü də, onu əhatə edən düşmənləri də qumbara ilə partlatdı. Mübariz İbrahimov düşmənin mövqeyinə tək getdi. Siz də onlar kimi "Vətən, sənin əsgərinəm!" deyirsiniz.

Sizin hər biriniz Vətəni müqəddəslik mərtəbəsində sevən Əlif Hacıyevlərin, Rasim İbrahimovların, Vəzir Orucovların, Yusif Mirzəyevlərin, Mübariz İbrahimovların, Raquf Orucovların, Çingiz Qurbanovların, Polad Həşimovların, İlqar Mirzəyevlərin döyüş yolunu qələbəylə başa çatdırmaq amalı ilə xidmət edirsiniz. Özünüz də bilirsiniz ki, xalq sizə nə qədər inanır, güvənir. Sizə həmişə "Sən Azərbaycan əsgərisən!" qururu ilə müraciət edir. 2016-cı ilin Aprel döyüşlərinin iştirakçılarını da bu sevgilərlə xatırlayır, döyüşlərdə şəhid olanların ruhunu da. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır" kəlamı sizə ünvanlanıb. Xalq bilir və inanır ki, 2016-cı ilin aprelində qazanılmış qələbəni siz böyük qələbəylə tamamlayacaqsınız.

Nə vaxtsa oxuduğum bir şeirin iki misrasını xatırlayıram:

Vətən gözdü, biz kirpik,
Gözümüzün keşiyini çəkirik.

Şairlər sizi vəsf edir, sizin Vətənə sevginizi bütün vətəndaşlara örnək bilir. Siz Vətəni belə sevirsiniz deyə, yeniyetmələr də belə sevəcək, belə qoruyursunuz deyə, yeniyetmələr də hərbi xidmətdə belə qoruyacaqlar.

Ermənistanın Azərbaycandan torpaq iddiasını, bu iddianın davamı kimi elan etmədən müharibəyə başlamasını, torpaqlarımızın işğalını beynəlxalq ictimaiyyət birmənalı şəkildə pisləmədi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi!" qətiyyətli bəyanatı sizin hərbi xidmət amalınızdır.

Ön xətdə xidmət edən əsgərlərdən biri deyib ki, Ali Baş Komandanın döyüş əmrini qələbəylə başa çatdıracağıq, sonra işğaldan azad etdiyimiz kəndlərin yenidən qurulmasında iştirak edəcəyik. Bu, əsgərin ali Vətən sevgisidir. İnanıram ki, siz də Vətəni o əsgər kimi sevirsiniz, siz də o əsgər kimi düşünürsünüz. Çünki bütün əsgərlərin Vətən sevgisi eynidir: Vətəni müqəddəslik mərtəbəsində sevmək, qorumaq! Sevdiyiniz Vətəni sədaqətlə qoruyursunuz. Siz dünyanın ən güclü ordularından birinin əsgərisiniz!

"Bura Vətəndir!" mahnısını siz də sevirsiniz, Azərbaycan əsgəri! Vətəni sevə-sevə qoruyursunuz!..

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**

# Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun komandiri əsir götürülüb





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, avqustun 23-də saat 05:45 radələrində cəbhənin Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd göstərib.

Cəbhənin bu istiqamətdə yerləşən Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Döyüş zamanı erməni diversiya qrupunun komandiri, ilkin dindirməyə görə baş leytenant Qurgen Alaverdyan əsir götürülüb. Onun üzərində bir sıra hərbi ləvazimatlar və şəxsi əşyalar aşkar olunub.

Bir daha bildiririk ki, cəbhədə vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Şəhidlər unudulmur, unudulmayacaq...

Qəhrəmanlar heç zaman unudulmurlar.

Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi qeyd edildi. 75 ildi ki, məlum qəhrəmanlar da xatırlanır, naməlum qəhrəmanlar da.

Ermənistanın Azərbaycandan əsassız torpaq iddiası elan edilmədən başlayan müharibəyə səbəb oldu. Döyüşlərdə qəhrəmanlıqlar da tarixləşdi, qəhrəmanlar da.

Bu ilin 12 iyulunda Ermənistan Azərbaycanın dövlət sərhədlərini pozmağa cəhd etdi. Bu, əvvəlcədən hazırlanmış təxribat idi. Döyüş növbətçiliyini məsuliyyətlə aparan əsgərlərimiz düşmənin təxribatının qarşısını qətiyyətlə aldılar. İtkilər verən düşmən geri çəkilməyə məcbur oldu. Azərbaycan Ordusu düşmən üzərində qətiyyətli qələbə qazandı.

Döyüşlərdə general-mayor Polad Həşimov da şəhid oldu.

General-mayor Polad Həşimovun xidmət yoldaşları onu qayğıkeş zabit kimi xatırlayırlar. Deyirlər ki, hamıya diqqət göstərirdi. Kimi qayğılı görsə, səbəbi ilə maraqlanırdı, köməyini əsirgəmirdi. Ehtiyatda olan zabit Qalib Paşayev kursant yoldaşını qürurla, bir qədər də kövrəkliklə xatırlayır. Deyir ki, general-mayor Polad Həşimov geniş dünyagörüşə malik zabit idi. Mütaliəni sevirdi. Oxunduğu kitabları asudə vaxtlarda bizə də danışırdı. Həm də xalq mahnılarımızı, muğamlarımızı, saz havalarını çox sevərdi. Bunlar onun duyumunu incələşdirmişdi.

Şəkil çəkdirməkdən xoşu gəlməzmiş. Buna baxmayaraq digər kursant yoldaşları kimi, Qalib Paşayevlə də şəkilləri var. Təvazökarlıqdan həmişə arxa sıralarda dayanarmış...

Telefondan xoşu gəlməzmiş. Xidmət yoldaşları onunla ya xidməti telefonla danışa bilərdi, ya da mütləq kabinetinə getməli idi.

Əsgərlərinin Vətənə, dövlət atributlarına məhəbbət ruhunda formalaşmasının cəfakeşi olub.

Qalib Paşayev kursant olanda Ağdamda çöl təcrübəsində olduqlarını da xatırlayır. "Mən Ali Hərbi Məktəbə ordudan gəldiyim üçün çətinlik çəkmirdim. Poladın səngərdə duruşu, bu duruşun mətinliyi, qətiyyəti, ciddi baxışları bizim də, zabitlərin də diqqətindən yayınmırdı. Zabitlərdən biri qürurla, "Həşimov yaxşı zabit olacaq" dedi. Polad dillənmədi, biz qürurlandıq."

Şəhidlər haqqında yazılanlar gənc nəsil üçün təkcə qəhrəmanlıq numunəsi deyil, həm də Vətənə sədaqətdi. Buna görə də şəhidlərdən həmişə qürurla, sevgilərlə, kövrəkliklə danışırlar. Bu xatırlamalar mənəvi borcödəmədir. Müharibə tariximizin bir səhifəsi də 2020-ci ilin iyul döyüşləridir, bu döyüşlərin qəhrəmanlarıdır, qaliblərıdir, şəhidləridir. Şəhidlər unudulmayacaq. Şəhid general-mayor Polad Həşimov da heç zaman unudulmayacaq....

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun IV kurs tələbəsi**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş Ağdərə yaşayış məntəqəmizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən hərbi qulluqçu özünə xəsarət yetirib.

Ermənistan ordusunun hərbi hissələrindən birində hərbi qulluqçu Roland Hovanisyan sevgilisi ilə telefonla danışdıqdan sonra təbeliyində olan silahdan atəş açaraq özünə xəsarət yetirib. Təsadüf nəticəsində sağ qalan erməni hərbçisinə tibb təlimatçısı ilk yardım göstərdikdən sonra hospitala təxliyə olunub.

Komandanlıq faktı ictimaiyyətdən gizlətsə də, hərbi polis tərəfindən "qəsdən özünə xəsarət yetirmə" faktı üzrə cinayət işi açılıb, araşdırma aparılır.

* * *

İşğal edilmiş Ağdərə rayonu ərazisindəki yaşayış məntəqələrimizdən birində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən daha bir hərbi qulluqçu avtomatdan atəş açaraq özünü güllələyib.

Hərbi hissənin əsgəri Arman Minasyan xidmət yoldaşlarının təzyiq və təhqirlərinə dözməyərək silahla özünə xəsarət yetirib. Lakin faktla bağlı polkovnik Gülyanın hərbi prokurorluğun sorğusuna göndərdiyi cavab əsasında hərbi qulluqçu A.Minasyan barəsində Ermənistan cinayət məcəlləsinin 363-cü maddəsi əsasında "xidmətdən yayınmaq məqsədilə qəsdən özünə xəsarət yetirdiyinə" görə cinayət işi açılıb.

Faktla bağlı heç bir rəsmi açıqlama verilməsə də, araşdırma davam edir.

* * *

İşğal edilmiş Ağdərə yaşayış məntəqəmizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində oğurluq edən iki hərbi qulluqçu həbs edilib.

İşğalçı ordunun hərbçiləri Artur Apoyan və T.Ayvazyan hərbi əmlakı oğurlayaq kriminal dəstənin üzvlərinə satdığına görə həbs olunublar.

Fakt ictimaiyyətdən gizlədilsə də, hərbi qulluqçular A.Apoyan və T.Ayvazyan barəsində prokurorluq tərəfindən başlanan cinayət işi üzrə istintaq davam edir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Vətənin keşiyində dayanan cəsur igidlərimizin döyüş hazırlığını daim yüksəltmək üçün günün nizam qaydasına əsasən məşğələlər keçirilir. Döyüş hazırlığının əsasında dayanan əsas amillərdən biri də sıra hazırlığıdır. Hərbi qulluqçuya xas olan xüsusiyyətlərdən biri nizam-intizamdır ki, o da başlanğıcını sıra hazırlığından götürür. Sıra hazırlığı hərbi qulluqçularımızın diqqətliliyini təmin edir, səliqəli olmasına yardımçı olur və iradəsini yüksəldir. Məşğələlər isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sıra Nizamnaməsinə uyğun keçirilir.*

*Sıra hazırlığı*

# Sıra nizami ordunun əsasıdır



"N" hərbi hissəsində şəxsi heyətin sıra hazırlığı məşğələsində iştirak etdik. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Zahid Məmmədovun tabeliyində olan əsgərlər müəyyən komandalar yerinə yetirir, sıra hazırlığının əsasını öyrənirdilər. Məşğələ bitdikdən sonra qrup komandirinə və şəxsi heyətə yaxınlaşıb, onlarla həmsöhbət olduq.

Kiçik çavuş Z.Məmmədov söhbət zamanı bildirdi ki, gənc əsgərin formalaşması üçün sıra hazırlığı çox önəmlidir. "Bu dərslər zamanı onlara nizam-intizam aşılanır, əsgərlərdə sıra vərdişləri və dözümlülük təkmilləşdirilir. Əvvəlcə onu deyim ki, hər bir komandir şəxsi heyətə nümunə olmalıdır. Öz səliqə-sahmanı, nizam-intizamı ilə əsgərlərinə nümunə göstərməlidir. Mən də kiçik komandir heyəti kimi daim öz üzərimdə çalışır, hərbi bilik və bacarığımı artırıram. Hərbi xidmətə gələn gənclərin bacarıqlı əsgər kimi formalaşmasında əməyim olduğu üçün qürurluyam. Burada bütün məşğələlər kimi sıra hazırlığı məşğələsi də yüksək səviyyədə təşkil olunur. Əsgərlərə əvvəlcə sıranın müqəddəsliyini, nizam-intizamın sıradan başladığını aşılayıram. Sonra onlara sıra hazırlığının fənn və elementlərini öyrədirəm. Əsgərlərin dərsə həvəslə yanaşması, verilən tapşırıqları bacarıqla yerinə yetirməsi məni daha da həvəsləndirir. Bizim bütün fəaliyyətimiz bir məqsədə köklənib - şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksək tutmaq, işğal edilən torpaqlarımızı Ali Baş Komandanımızın əmri ilə azad etmək. Bu haqq savaşına həm komandirlər, həm də əsgər heyəti tam hazır və qadirdir."

Növbəti həmsöhbətimiz əsgər Əli Kərimov dedi ki, Vətən müdafiəçilərinin sırasında olmasından fəxr hissi keçirir. "Hər bir valideyn öz övladının Vətənə sədaqətli olmasını arzulayır. Biz övladlar da çalışırıq ki, Vətənə ləyaqətlə xidmət edək, komandirlərimizin bütün əmr və tapşırıqlarını cəld və düzgün yerinə yetirək. İnanırıq ki, yaxın zamanda qüdrətli ordumuz torpaqlarımızı işğaldan azad edəcək və millətimiz Böyük Qələbənin şahidi olacaq".

Əsgər Rahin Səmədov isə yoldaşının sözünün təsdiqi olaraq əlavə etdi ki, qorxaq ermənilər bizim ordunun nəyə qadir olduğunu 2016-cı ilin aprelində gördülər. "Bu onlara dərs oldu. Mən o zaman ordumuza baxıb fəxr edirdim ki, bir neçə il sonra mən də igid əsgərlərimizin sıralarında olacam, cəsur Azərbaycan oğulları ilə çiyin-çiyinə dayanacağam. Amma bu hələ başlanğıc idi. Böyük Qələbə irəlidədir".

Əsgərlər Xəqani Babayev, Oruc Rəhimov, Zaur Əsgərzadə və başqaları hərbi xidmətin əsl həyat və kişilik məktəbi olduğunu, bunun onlara heç zaman unudulmayacaq bilik və bacarıqlar verdiyini qeyd etdilər.

**Kursant**
**İbrahim MƏMMƏDBƏYOV**

*Hərbi texnikalar, silahlar*

# “Muxa” (RPQ-18) qumbaraatanı

*Tankəleyhinə reaktiv “Muxa” RPQ-18 qumbaraatanı düşmənin şəhər tipli tikililərində və yüngül daldalanacaqlarında olan sığınacaqlarının, zirehli hədəflərinin, canlı qüvvəsinin məhv edilməsi üçün yaradılıb. “Muxa” qumbaraatanı dünyada ən geniş yayılmış birdəfəlik qumbaraatandır. Bir çox döyüş əməliyyatlarında aktiv olaraq istifadə edilir.*



İlk dəfə olaraq belə qumbaraatan konstruktor İ.E.Roqozin və V.İ.Baraboşkin tərəfindən hazırlanıb.

RPQ-18 əl qumbaraatanının 1971-ci ildə təcrübə meydanında sınağı keçirilib və 1972-ci ildə sovet ordusunun silahlanmasına daxil edilib. Beləliklə, tankəleyhinə əl qumbaraatanı RPQ-18 tankəleyhinə kumulyativ RKQ-3 qumbarasını əvəz edib. Qumbaraatan buraxıcı konteyner və məhvedici elementdən ibarətdir. Onun konteyneri buraxıcı-zərbə mexanizmi və nişangahla təchiz edilib, özündə ikili teleskopik borunu təsvir edir.

Qumbaraatanın buraxıcı qurğusunun lüləsi teleskopik olaraq birləşmiş iki borudan ibarətdir. Onun şüşə-lifli borusunun daxilində alüminium ərintili bir boru da vardır. Səyyar hərəkət zamanı hər iki boru bir-birinin üstündə yerləşir və uzunluqları 705 mm təşkil edir. Atəş açmaq üçün borular aralanır və onun lüləsinin uzunluğu 1050 mm-ə çatır.

Qumbaraatanın çəkisi 2,6 kiloqram, kalibri 64 mm, uzunluğu 705 (1050) mm, birbaşa atəş uzaqlığı 135 metr, nişangah uzaqlığı 200 metr təşkil edir. Silahın 90 dərəcə altında zireh deşməsi 300 mm, 60 dərəcədə isə 150 mm-dir. Qumbaranın çəkisi 1,4 kiloqram, qumbaranın ilkin sürəti saniyədə 114 metrə qədərdir və onun əsas hissəsinin kalibri 64 mm-dir.



RPQ-18 qumbaraatanı döyüş vəziyyətinə 8-10 dəqiqə ərzində gətirilir. Qumbarası 300 mm-lik zirehli poladı deşməyə qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin müdafiə sənayesi uğurla inkişaf edir



“Türkiyənin müdafiə sənayesi uğurla inkişaf edir. Son zamanlar ölkə daxilində və xaricində əldə etdiyimiz bir çox uğurlarda müdafiə sənayemizin də rolu var. Müdafiə sahəsində güclü və müstəqil ola bilməyən dövlətlərin gələcəyə inamla baxmaları mümkün deyil. Bu sahədə durğunluq yarana bilməz. Daha inkişaf etmiş modellər istehsal etmək məcburiyyətindəyik”.

Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulun Tuzla rayonunda yerləşən "Desan" gəmiqayırma zavodunda keçirilən Yeni dəniz sistemlərinin təslimi mərasimində çıxışı zamanı deyib.

Hədəfin hər bir mühüm sahədə idxaldan asılı olmayan istehsal şəraiti qurmaq olduğunu deyən Prezident Ərdoğan Türkiyənin müdafiə sənayesinin dinamikliyinin ən vacib göstəricisi olaraq bu sahə üzrə şirkətlərin sayının 56-dan 1500-ə çatdığını vurğulayıb. Qeyd edilib ki, hazırda daha böyük layihələr üzərində işlər aparılır və növbəti beş il ərzində beş böyük layihənin reallaşdırılması nəzərdə tutulur.

Rəcəb Tayyib Ərdoğan Türkiyənin dünyada özünəməxsus hərbi gəmilər dizayn və istehsal edən 10 ölkədən biri olduğunu xatırladıb.

## Somali sahillərində girov götürülən İran vətəndaşları azad ediliblər



Somali sahillərində dəniz quldurları tərəfindən girov götürülən dörd nəfər İran vətəndaşı azadlığa buraxılıb.

Bu barədə İranın Təhlükəsizlik Nazirliyinin yaydığı açıqlamada bildirilib.

Qeyd olunub ki, dörd il əvvəl girov götürülən şəxslər Xarici İşlər və Təhlükəsizlik nazirliklərinin birgə səyləri ilə sərbəst buraxılıb. Sistan-Bəlucistan vilayətindən olan iranlılar yaxın günlərdə vətənə gətiriləcəklər.

## Cənubi Sudanda təyyarənin qəzaya uğraması nəticəsində 17 nəfər həlak olub



Cənubi Sudanda "South West Aviation" aviakompaniyasına məxsus yük təyyarəsinin qəzaya uğraması nəticəsində ən azı 17 nəfər, o cümlədən iki ekipaj üzvü həlak olub.

Təyyarə paytaxt Cuba şəhəri ətrafında aeroport yaxınlığında havaya qalxdıqdan bir neçə dəqiqə sonra yerə çırpılıb. Qəza nəticəsində xəsarət alan bir nəfər xəstəxanaya yerləşdirilib.

Təyyarənin paytaxtdan Vau və Aveyl yaşayış məntəqələrinə uçduğu bildirilir. Hazırda qəzanın baş verdiyi ərazidə axtarış-xilasetmə əməliyyatı davam edir.

**AZƏRTAC-ın materialları əsasında**

Leytenant Yarıyev Röyal Rasim oğluna 2020-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 507
Nüsxə 3960